# Cəsur Oğlanların kitabı

## Azərbaycanın 24 görkəmli kişisinin hekayəsi

qanun nəşriyyatı

**CƏSUR OĞLANLARIN KİTABI**
Bakı, Qanun Nəşriyyatı, 2024, 104 səh.

Ölçü: 180x240 mm
Cild: qalın
Çapa imzalandı: 15.02.2024

Tərtibçi müəllif: Günel Natiq
Korrektorlar: Əyyar Tahir, Elsevər Murad
Texniki redaktor: Əsəd Qaraqaplan
Mətn dizaynı: Rahilə Şamilqızı
Rəssam: Yekaterina Klimova

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-870-1

© Qanun Nəşriyyatı, 2024

Yenilik etmək, hansısa zirvəni fəth etmək istəyirsiniz, amma buna ürək eləmirsiniz? Onda “Cəsur oğlanlar” kitabı sizə faydalı ola bilər. Bu kitab Azərbaycanın siyasi, mədəni, ədəbi, sənət həyatında inqilabi yenilik etmiş görkəmli şəxsiyyətlərdən bəhs edir. Öz sahəsində yeni yol açmış cəsur insanlar – ilk rəssam, ilk vokal ifaçısı, ilk parlament sədri, ilk cazmen, ilk cərrah... Hansısa zirvəni fəth etmək, yeni yol açmaq həmişə çətin və əzablıdır. Çünki bu, axına qarşı getmək kimidir. Öz sənətlərinin cəngavərləri isə məqsədə doğru gedən yolda heç bir çətinliyə təslim olmadılar, son ana kimi vuruşdular və adlarını tarixə yazmağı bacardılar.

Bu kitab uşaqları, yeniyetmələri uğur qazanmağa ruhlandırmaqla yanaşı, həm də xalqımızın görkəmli nümayəndələri haqqında qısa, amma dolğun bilgi verir.

# MÜNDƏRİCAT


BABƏK (798–838) ........ 6

İMADƏDDİN NƏSİMİ (1369–1417) ........ 10

ŞAH İSMAYIL XƏTAİ (1487–1524) ........ 14

NADİR ŞAH (1688–1747) ........ 18

CAVAD XAN (1748–1804) ........ 22

ABBASQULU AĞA BAKIXANOV (1794–1847) ........ 26

MİRZƏ FƏTƏLİ AXUNDOV (1812–1878) ........ 30

ZEYNALABDİN TAĞIYEV (1838–1924) ........ 34

HƏSƏN BƏY ZƏRDABİ (1842–1907) ........ 38

ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV (1865–1934) ........ 42

ƏHMƏD BƏY AĞAOĞLU (1869–1939) ........ 46

CƏLİL MƏMMƏDQULUZADƏ (1869–1932) ........ 50

ƏZİM ƏZİMZADƏ (1880–1943) ........ 54

HÜSEYN ƏRƏBLİNSKİ (1881–1919) ........ 58

HÜSEYN CAVİD (1882–1941) ........ 62

MƏMMƏD ƏMİN RƏSULZADƏ (1884–1955) ........ 66

ÜZEYİR HACIBƏYOV (1885–1948) ........ 70

BÜLBÜL (1897–1961) ........ 74

CƏFƏR CABBARLI (1899–1934) ........ 78

MEHDİ HÜSEYNZADƏ (1918–1944) ........ 82

LÜTFİ ZADƏ (1921–2017) ........ 86

VAQİF MUSTAFAZADƏ (1940–1979) ........ 90

POLAD HƏŞİMOV (1975–2000) ........ 94

NATİQ QASIMOV (1971–...) ........ 98

ÖZ HEKAYƏNİ YAZ ........ 102

ÖZ PORTRETİNİ ÇƏK ........ 103

# BABƏK

**XÜRRƏMİLƏR HƏRƏKATININ RƏHBƏRİ, ƏRƏB XİLAFƏTİNƏ QARŞI CƏNUBİ AZƏRBAYCANDAKI AZADLIQ MÜHARİBƏSİNƏ RƏHBƏRLİK ETMİŞ SƏRKƏRDƏ**
**(798–838)**

O kiçik yaşda olanda ailəsinə bədbəxtlik üz verdi: atasına yolda quldurlar hücum edib ağır xəsarət yetirdilər. Ata aldığı yaralardan evdə dünyasını dəyişdi. Ana iki oğlu ilə baş-başa qaldı. Babək 10 yaşından anasına kömək edir, mal növbəsinə gedirdi.

Bir az böyüdükdən sonra karvanlara qoşulub Azərbaycanın hər yanını gəzdi, yurdunun hər qarışına bələd oldu. Təbrizdə xürrəmilərlə tanış olduqdan sonra yenidən evlərinə, anasının yanına qayıtdı.

“Bəzz” adlanan dağ qalasında Cavidan adlı vilayət hakimi yaşayırdı. O, xürrəmilərə başçılıq edirdi. Cavidanın ən böyük düşməni Əbu İmran adlı feodal idi. Yolları daim toqquşurdu.

Bir dəfə Cavidan Zəncanda mal-qarasını satıb geri qayıdarkən qar fırtınasına düşür. Fırtınadan qorunmaq üçün təsadüfən dəstəsi ilə Babəkin evində qonaq olur. Yaşından böyük düşünən, ağıllı, fərasətli, döyüşkən cavan oğlan onda rəğbət oyadır və çox düşünmədən onu öz dəstəsinə dəvət edir.

Babək az bir vaxtda Cavidan və dəstəsinin etibarını qazanır. Bir neçə ildən sonra Cavidan Əbu İmranla toqquşmaların birində öldürülür. Onun öz vəsiyyətinə əsasən xürrəmilərə Babək başçılıq etməyə başlayır.